ƏBDÜLQƏNÍ ƏFƏNDÍ NUXƏVÍ
XALÍSƏQARÍZADƏ



# QAZIXANA DƏFTƏRÌ

T3(2H)
X-24

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

ƏBDÜLQƏNİ ƏFƏNDİ NUXƏVİ
XALİSƏQARIZADƏ

# QAZIXANA DƏFTƏRİ

Ag - 249152

M.F. Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – NURLAN – 2008

*Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 22 sentyabr 2008-ci il tarixli 9 №-li iclasının qərarı ilə nəşr olunur.*

Transfoneliterasiya edən,
nəşrə hazırlayan və
ön sözün müəllifi
**Kamandar Şərifov,**
**filologiya elmləri doktoru**

Redaktor:
**Azadə Musayeva,**
**filologiya elmləri doktoru**

Kompüter icraçısı: **Mətanət Muradova**

**Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadə. Qazıxana dəftəri. Bakı: Nurlan, 2008, 161 s.**

*XIX əsrin tanınmış alimi, pedaqoqu və kitabşünası Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadə Şəkinin baş qazısı vəzifəsində işlədiyi müddət ərzində vəfat edənləri və nikah müqaviləsi bağlayanları «Qazıxana dəftəri»ndə qeydə almışdır. Bu dəftər Şəkinin keçmiş tarixinin əhalisinin və səhiyyəsinin, eləcə də ailə hüququ ilə bağlı məsələlərin öyrənilməsi baxımından çox dəyərli qaynaqlardandır.*

$\frac{4602000000}{N-098-2008}$ *Qrifli nəşr*

© «Nurlan», 2008

**Dəyərli qaynaq**

XIX yüzilliyin tanınmış Azərbaycan alimi, pedaqoqu və kitabşünası hacı Əbdülqəni Əfəndi hacı Məhəmməd əfəndi oğlu Nuxəvi Xalisəqarızadə özünün çoxcəhətli elmi fəaliyyəti ilə şöhrət tapmışdır.[1] Onun tədqmqatlarının əhatə etdiyi sahələrdən birini də ilahiyyat elmləri təşkil edir. O, ilahiyyat elmləri sahəsində mükəmməl təlim almış bir şəxsiyyət olmuşdur. Əbdülqəni əfəndi ilahiyyat elmləri sahəsində bir sıra orijinal əsərlər yaratmaqla yanaşı, Şərqin görkəmli ilahiyyatçı alimlərinin əsərlərinə çox dəyərli şərhlər və haşiyələr də yazmışdır. Alimin ilahiyyat elmlərinə həsr etdiyi orijinal əsərlərdən biri «Ərlərin əhvalı haqqında risal» adlanır. Müəllif bu əsərini hicri 1250 (1834-35)-ci ildə qələmə almış və dərs vəsaiti kimi hazırladığı öz əlyazma toplularından birinə daxil etmişdir. Alim bu əsərini islam hüququnun ailə hüququ bölməsinin bəzi məsələlərinə həsr etmişdir. Əsərin adından da məlum olduğu kimi ərlərin, yəni ər və arvadın bir-birinə və ailə üzvlərinə münasibətdə hüquq və vəzifələri işıqlandırılır. Müəllif öz əsərinin oxunaqlı olması və oxucunun diqqətini cəlb etməsi üçün əsərin mövzusu ilə bağlı çoxlu miqdarda hekayətlər və rəvayətlər vermişdir. Bununla bərabər o, öz müddəalarını elmi surətdə əsaslandırmaq üçün tez-tez islam hüququnun əsas mənbələri olan Qurana və sünnəyə müraciət edir, oradan çoxlu nümunələr verir. Risalənin müqəddiməsində Əbdülqəni Nuxəvi əsərin yazılma səbəblərini şərh edərək bildirir ki, çoxsaylı kişilər və qadınlar mənə müraciət edərək, ərəb dilini bilməyənlərin istifadə etməsi məqsədilə, ər və arvadın hüquq və vəzifələrini işıqlandıran türk dilində bir əsər yazmağımı məndən xahiş etdilər. Sonra da o, qeyd edir ki, mən də öz bildiklərimi onlardan gizləyə bilməzdim. Alim özünün bu fikrini Peyğəmbər əleyhissəlamın aşağıdakı hədisi ilə əsaslandırır: «Bir kimsə bildiyini kətm etsə (gizlətsə) qiyamət günündə ağ-

[1] Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadə haqqında bax: Kamandar Şərifli. Əbdülqəni Nuxəvi Xalisəqarızadə. Bakı, 2002; Kamandar Şərifli. Alim, pedaqoq və kitabşünas. Bakı, 2007.

zına oddan kumm (buruntaq) urarlar».

Müəllif bu hədisi oxucuların diqqətinə çatdırmaqda əsas məqsədi öz oxucularına oxuyub öyrənməyi və öyrətməyi təlqin etməyə çalışmışdır. Bu da islamın mahiyyətindən irəli gələn və Əbdülqəni Nuxəvinin həyat qayəsinə çevrilmiş əməl və məqsəd idi. O, mömin bir müsəlman kimi yazdığı, tərtib etdiyi və köçürdüyü hər bir əsər üçün oxucudan yeganə təmənnası rəhmət duası olmuşdur. Əbdülqəni əfəndi Xalisəqarızadə müqəddimədən sonra əsərini Peyğəmbər əleyhissəlamın aşağıdakı hədisi ilə başlamış və bununla da o, qadın hüququnun qorunmasını ön plana çəkmişdir. «Kişiyə öz qadınlarının haqqını məhdudlaşdırması kifayətdir».

Alim əsərin birinci hissəsində Allah-Təalanın birliyi və şəriksizliyi haqqında müəyyən bilgilər verdikdən sonra ibadətlə bağlı bir sıra məsələlərin ətraflı şərhini verir. Daha sonra şərh etdiyi məsələlərlə bağlı İbrahim bin Ədhəm, İmam Əli, Əbu Hənifə ilə əlaqədar, eləcə də bir sıra başqa hekayət və rəvayətlər verir. Bu hekayət və rəvayətlərlə öz oxucularına bu və ya digər fikri təlqin etmək və inandırmaq məqsədilə onların seçilməsinə xüsusi diqqət yetirmişdir. Əbdülqəni Nuxəvi əsərin ikinci hissəsini isə ər və arvadın hüquq və vəzifələrini işıqlandıran məslələrin şərhinə həsr etmişdir. O, arvadın ər üzərində olan haqqını səkkiz maddədə ətraflı işıqlandırmışdır. Onun yazdığı kimi ər öz arvadına və ailəsinə istər evdə istərsə də evdən xaricdə lazımi xidmətləri göstərməli, halal əməyi ilə qazandığı mal ilə ailəsini halal ruzi, paltar və mənzillə təmin etməli, arvadına vacib olan mehri ödəməli və onun razılığı olmadan əmlakını xərcləməməli, arvadına zülm etməməlidir. Qadın Allahın yer üzündə əmanətidir, əmanətə xəyanət edənin aqibəti məlumdur. Əsərin növbəti fəslində böyük bir hissə ər və arvad arasındakı cinsi əlaqə məsələlərinə həsr edilmişdir. Burada cinsi əlaqənin üsulları, cinsi əlaqənin ən yaxşı günləri, cinsi əlaqənin gigiyenası və nigahla bağlı bəzi məsələlər ətraflı işıqlandırılmışdır. Bundan sonrakı fəsildə isə ərin arvad üzərindəki haqqı səkkiz maddədə verilir. Burada qeyd edilir ki, arvad öz ərinə sədaqətli və vəfalı olmalı, onun



qulluğunda durmalı, dediklərini yerinə yetirməli, ona ehtiramla yanaşmalı, onun bütün zəhmətlərini çəkməli, ərindən icazəsiz heç yerə, hətta, ata və anasının evinə getməməlidir. Bununla bərabər onu da yazır ki, arvad namazdan sonra oxuduğu dualarla ərini özündən əvvəl anmalıdır, əks təqdirdə onun namazı qəbul olunmaz.

Yuxarıda göstərilən məsələlərlə bağlı Məhəmməd peyğəmbərin (s) hədislərindən nümunələr və eləcə də çoxlu miqdarda hekayət və rəvayətlər verilir. Əsərin sonuncu fəslində isə islamda salihə qadınlardan bəhs olunur, onlarla bağlı da çoxlu didaktik hekayətlər və hədislər verilir. Əbdülqəni Nuxəvi bu əsərində xalqın maariflənməsi üçün çox aktual bir mövzuya toxunmuş və onu öz oxucularına maraqlı və oxunaqlı bir şəkildə təqdim etmişdir.

Əbdülqəni Nuxəvi «Otuz fərz» adlı başqa bir əsər də yazmışdır. Bu əsərində imanın altı sifəti, müsəlman olmağın beş şərti, nigah müqaviləsinin bağlanma qaydaları ətraflı şəkildə izah edilir, namazdan sonra oxunan dualar verilir. Bu əsər məzmununa və əhatə etdiyi mövzulara görə bundan əvvəlki «Ərlərin əhvalı haqqında risalə» adlı əsərə çox yaxındır və əslində onun bir fəsli kimi verilmişdir. Müəllif bu əsərdə öz fikirlərini əsaslandırmaq üçün Quran və hədislərdən çoxlu misallar gətirmişdir. Bu əsər də hicri 1250 (1834-35)-ci ildə qələmə alınmışdır.

Sədəddin Məsud bin Ömər ət-Təftəzani (öl.h.791\1388-89) Nəcməddin Əbi Həfs Ömər bin Məhəmməd ən-Nəsəfinin (öl.h.537\1142-43) «əl-Əqaid ən-Nəsəfi» adlı əsərinə yazdığı şərhə Xəyali adı ilə şöhrət tapmış Çələbi Rumi haşiyə yazmışdır. Xəyali Azərbaycanın böyük mütəfəkkiri Nəsirəddin Tusinin tələbəsi olmuş Xızır bəydən dərs almışdır. Xəyalinin göstərilən haşiyəsinə daha iki Azərbaycan alimləri haşiyələr yazmışlar. Bunlardan biri Qul Əhməd adı ilə şöhrət tapmış Əhməd Ağdaşı Şirvani, digəri isə Əbdülqəni Nuxəvidir. Qul Əhməd və onun haşiyəsi haqqnda irəlidə ətraflı məlumat veriləcəkdir. Əbdülqəni Nuxəvi Xəyalinin haşiyəsini tərtib etdiyi əlyazma toplusuna daxil etdikdən sonra, hicri 1251 (1835-36)-

cı ildə yenidən bu haşiyə üzərinə qayıdaraq, onun mətnini tekstoloji baxımdan tədqiq etmiş və ona geniş bir tədqiqat əsəri yazmışdır. Bu əsərin yazılmasında Əbdülqəni Nuxəvi «əl-Əqaid ən-Nəsəfi»yə yazılmış onlarla şərh və haşiyələrdən, eləjə də başqa mənbələrdən faydalanmışdır. Əbdülqəni Nuxəvi Xəyalinin haşiyəsinə yazdığı mükəmməl şərhdən sonra, onun diqqətini Qul Əhməd Ağdaşinin Xəyaliyə yazdığı haşiyə cəlb etmişdir. Əbdülqəni Nuxəvi Qul Əhmədin haşiyəsi üzərində geniş araşdırmalar apararaq, onu hissə-hissə şərh etmişdir. Beləliklə də, Xalisəqarızadə Qul Əhmədin haşiyəsindən dəfələrlə böyük olan bir tədqiqat əsəri yazmışdır.

Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadənin ən dəyərli tədqiqatlarından biri də Şeyxzadə Mühyəddin Məhəmməd bin əş-Şeyx Müsləhəddin Mustafa əl-Qucavinin görkəmli alim əl-Beyzavinin (öl.685/1286) «Ənvarüt-tənzil və əsrarüt-təvil» adlı təfsirinə yazdığı çox mükəmməl bir haşiyə ilə bağlıdjır. XV yüzilliyin ikinci yarısında Anadolunun şimal-qərbindəki Qoca-elində dünyaya gəlmiş və dövrünün ən görkəmli ilahiyyatçılarından olmuş Şeyxzadə (öl.950/1534-cü il) bir müddət qazi vəzifəsində çalışmış, uzun zaman mədrəsədə Quran və hədislərdən dərs demişdir. Ömrünün sonunda dünya işlərindən uzaqlaşaraq təklənmiş və zahidanə həyat tərzi keçirmişdir.

Şeyxzadə pedaqoji fəaliyyətlə məşğul olduğu illərdə Beyzavinin «Ənvarüt-tənzil və əsrarüt-təvil» adlı təfsirinə böyük həcmli çox dəyrli haşiyə yazmışdır. Şeyxzadənin ilk məqsədi «Ənvərüt-tənzil və əsrarüt-təvil» təfsirinin mətnini ibtidai məktəb şagirdlərinin səviyyəsinə uyğunlaşdırmaq olmuşdur. Buna görə də o, şagirdlərin başa düşməsi üçün təfsirin hər bir sözünü qrammatik, leksik və fonetik baxımdan təhlil etmiş, Quranın surələri və ayələri ilə bağlı bütün tarixi faktlara və onların çoxsaylı variantlarına asan anlaşıla bilən bir formada aydınlıq gətirmişdir. Buna görə də Şeyxzadə əl-Qucavinin bu haşiyəsinin həcmi səkkiz cildə qədər böyümüşdür.

Alim bu əsəri üzərinə yenidən qayıtmalı olmuşdur. O, təlim məqsədi güdən hər şeyi öz haşiyəsindən çıxarıb, yerdə qalan hissəsini yenidən işləyərək və əlavələr edərək, haşiyənin yeni elmi variantını hazırlamışdır. Lakin «Kəşf əz-zunun an əsəmil-kutıb vəl-funun» əsərinin müəllifi Hacı Xəlifə yazır ki, katiblər Şeyxzadənin iki variantda yazdığı haşiyəsinin mətnləri üzərində o dərəcədə özbaşınalığa yol vermişlər ki, onların arasında olan fərqlər heçə endirilmişdir. Bu qabiliyyətsiz katiblər Şeyxzadənin bu dəyərli əsərində sadə antalogiyalar tərtib edərək, onu adi qiraət toplusuna çevirmişlər.



Şeyxzadənin haşiyəsinin mətni üzərində katiblərin yol verdikləri özbaşınalıq başqa alimlər kimi Əbdülqəni əfəndini də narahat etmişdir. Əbdülqəni əfəndi Şeyxzadənin yazdığı haşiyənin ikinci elmi variantının mətni üzərində, sözün əsl mənasında, yüksək səviyyəli elmi-tekstoloji tədqiqat aparmışdır. O, əsərin müxtəlif əlyazma nüsxələrini müqayisəli şəkildə araşdıraraq, aşkar etdiyi nüsxə fərqlərini əsas mətnin haşiyələrində qeyd etməklə bərabər, apardığı araşdırmalarla bağlı mətnə geniş şərh və izahlar yazmışdır. Bununla bərabər Əbdülqəni əfəndi bu araşdırmalarda söylədiyi fikir və mülahizələrinin düzgünlüyünü təfsirə yazılmış ayrı-ayrı şərh və haşiyələrdən verdiyi çıxarışlarla elmi surətdə əsaslandırmışdır. Bununla da əlyazmanın mətninin kənarları başdan sona kimi nüsxə fərqləri, şərh və izahlarla doldurulmuşdur. Bəzi hallarda mətnin haşiyələri kifayət etmədikdə səhifələr arasına əlavə vərəqlər salınmışdır.

Əbdülqəni əfəndi tədqiqatın axırında qeyd edir ki, Şeyxzadənin elmi variantda yazdığı göstərilən haşiyənin mətni üzərində apardığı elmi-tekstoloji araşdırmalar müəllimi İbrahimxəlil əfəndi Şirvaninin məsləhətilə həyata keçirilmişdir. Bununla bərabər Əbdülqəni əfəndi yazır ki, Beyzavinin təfsirinə yazılmış bir çox şərh və haşiyələri görmüş və eşitmişəm. Onlara misal olaraq Şeyxzadə Ruminin, Sədi Çələbinin, Şeyxzadə Şirvaninin, Məhəmməd əfəndi əl-Xadiminin, Şihabəddin əl-Xafacinin, Əbdülhəkim əs-Silkutinin, Mövlanə Xosrovun, Molla Hüseyn əl-Xalxalinin, Molla İsaməddin əl-Əsfərainin, İmam əs-Süyutinin və Şeyx Zəkəriyyə əl-Ənsarinin «Fəth əl-cəlil li bəyan əl-xəfiyyi anvar ət-tənzil» adlı şərh və haşiyələri göstərmək olar. Bu qeyd onu göstərir ki, Əbdülqəni əfəndi

apardığı tədqiqatlara çox ciddi yanaşmış, araşdırdığı əsərlərlə bağlı yazılmış əsərləri və mənbələri çox həssaslıqla öyrənmişdir.

Əbdülqəni əfəndi Nuxəvi üzərində tədqiqat apardığı nüsxəyə 1256 (1840)-cı ildə yazdığı sonluqda qeyd edir ki, bu nüsxəni gələcəkdə təshih etmək arzusilə köçürüb başa çatdırdı. Daha sonra oradaca qeyd edir ki, ey qardaşlar, bu mətndə səhvlər tapsanız məni ittiham etməyin, Allah gələcəkdə başqa nüsxələr tapmaqda və bu mətndəki çoxsaylı səhvləri aradan qaldırmaqda kömək olsun. Buradan da aydın olur ki, Əbdülqəni əfəndi Şeyxzadənin haşiyəsinin bu nüsxəsini köçürdükdən sonra, daha mükəmməl nüsxələr əldə edərək, onun mətni üzərində çox ciddi tekstoloji araşdırmalar aparmışdır. O, yazdığı bir beytdə Allaha şükr edir ki, O, Əbdülqəni Əfəndiyə bu əsərin mətnindəki səhvləri və təhrifləri öz ölümünədək aradan qaldırmağa imkan verdi. Bu nüsxənin sonluğunun ətrafında yazdığı daha bir sonluqda qeyd edir ki, o, 1268 (1869)-ci ildə köçürdüyü nüsxəni Misir çapı ilə müqayisəli şəkildə tutuşduraraq, mətndəki bütün təhrifləri islah etmişdir. Bununla da aydın olur ki, Əbdülqəni əfəndi 18 ildən sonra köçürdüyü nüsxə üzərinə yenidən qayıdaraq, onun mətnini Misir çapı əsasında da yenidən araşdıraraq, Şeyxzadənin haşiyəsinin imkan daxilində daha düzgün nüsxəsini yaratmışdır. Tədqiqatçılar Əbdülqəni əfəndinin bu nüsxəsini Şeyxzadə əl-Qucavinin haşiyəsinin elmi-tənqidi mətni hesab edirlər.

Əbdülqəni əfəndi Nuxəvi Xalisəqarızadənin ilahiyyat elmləri sahəsində göstərdiyi fəaliyyəti və xalq arasında yiyələndiyi yüksək nüfuzu nəzərə alınaraq, o, Şəki şəhərinin Böyük Cümə məscidinin imamı və baş qazısı təyin olunmuşdur. Onun qazilik dəftəri və imzaladığı rəsmi dövlət sənədlərinin bir qismi hal-hazırda Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Qazilik dəftəri əvvəldən naqis olduğuna və hicri 1282 (1865)-ci ildən başladığına görə onun bu vəzifəyə nə vaxt təyin olunduğu məlum olmur. «Elmlərin açarı» adlı əsərinin II cildində hicri 1280 (1863)-ci ildə artıq bu vəzifədə işlədiyini qeyd etmişdir. Deməli o, Şəkinin baş qazisi vəzifəsinə hələ 1863-cü ildən əvvəl təyin olunmuş və uzun müddət bu vəzifəni icra etmişdir. Məlumdur ki, o dövrlərdə belə vəzifəyə dövrünün ən bilikli və xalq içərisində böyük nüfuza malik olan şəxsləri təyin olunurdu.



Əbdülqəni əfəndi Şəki şəhərinin baş qazısı işlədiyi ildən etibarən Şəkidə ölənlərin və nigaha girənlərin qeydiyyatını aparmağa başlamış və ondan sonra isə onun bu işini oğlu Abdulla davam etdirmişdir. Əbdülqəni əfəndinin apardığı qeydiyyat onun «Qazıxana dəftəri» adlandırdığı əlyazma kitabında öz əksini tapmışdır. Alimin tərtib etdiyi bu əlyazma kitabı XIX yüzillikdə Şəkidə ailə hüququnun, səhiyyənin tarixinin, yer adları və tanınmış şəxsiyyətlərlə bağlı müəyyən məlumatların öyrənilməsi və əldə edilməsi baxımından çox dəyərli qaynaqdır.

Əbdülqəni Nuxəvi Xalisəqarızadənin nəşrə hazırlanan «Qazıxana dəftəri» kitabı üzərində aparılan araşdırmalar bir sıra mətləblərə aydınlıq gətirmişdir. Belə ki, Şəkidə xalq arasında belə bir fikir gəzirdi ki, Əbödülqəni Nuxəvi Xalisəqarızadə ərəb qızına evlənmişdir. Lakin istər Əbdülqəni əfəndinin şəcərəsində, istərsə onun kitablarında, istərsə də başqa mənbələrdə bu fikrə aydınlıq gətirən bir məlumat əldə etmək mümkün olmamışdır. «Qazıxana dəftəri»ndə Əbdülqəni əfəndi özünün birinci həyat yoldaşı hacı Anaxanımın ölüm tarixi ilə bağlı verdiyi məlumatdan aydın olmuşdur ki, Anaxanım ərəb mühacirlərindən olan Seyyid hacı Əhmədin qızıdır. Eyni zamanda verilən bu məlumatlarda Anaxanımın 1876-cı ildə uzun sürən xəstəlikdən 50 yaşında vəfat etdiyi göstərilir.

Bu kitabda Əbdülqəni əfəndi özünün ikinci nigahı haqqında da bilgi vermişdir. Əbdülqəni əfəndi ikinci dəfə hicri 25 şəvval 1292 (oktyabr 1875)-ci ildə sıravi Şəki vətəndaşının, yəni nalbənd Əli Məhəmməd Nuxəvinin qızı Məkkəyə evlənmişdir. Bu Məkkənin birinci, Əbdülqəni əfəndinin isə ikinci nigahı idi. Bu zaman Əbdülqəni əfəndinin 59 yaşı olmuş və Məkkə xanımla cəmi 4 il yaşamışdır. Onun ikinci nigahdan olan oğlu Munirəddin Əbdülmuğninin ölüm tarixi də «Qazıxa-

na dəftəri»ndə qeyd edilmişdir. Bununla bərabər «Qazıxana dəftəri»ndə Əbdülqəni əfəndinin və başqa Xalisəqarızadə övladlarının ölüm tarixləri və hansı xəstəliklərdən öldükləri də qeyd edilmişdir. Əbdülqəni əfəndinin isə hansı xəstəlikdən öldüyü yazılmamışdır. Onu da qeyd etmək lazımdır ki, Əbdülqəninin həyat yoldaşı Anaxanım və onun valideynləri Şəkidə məskunlaşmış yeganə mühacirlər deyillər. «Qazıxanə dəftəri»ndə Şəkidə olan başqa mühacirlər haqqında da məlumat verilir.

«Qazıxana dəftəri»ndən Şəkinin xanları, tanınmış şəxsiyyətləri və onların övladları ilə bağlı müəyyən məlumatlar əldə etmək olar. Onlara nümunə olaraq aşağıdakıları göstərmək olar: Şəki xanları Hacı Çələbi xan, Məhəmmədhəsən xan, Səlim xan, Şəki bəylərbəyi Fətəli xan, Əlican Həsən xan Mirzə bəy Sultanovun oğlu, Şəkixanovlar, Əfəndiyevlər və Əfəndizadələr, İmamzadələr, Qaragözzadələr, Danyal Sultan, Şeyxəli bəy, Əlican bəy Nuxəvi, knyaz Əbdürrəhman, knyaz Abdulla, şeyxzadələr, Axundzadələr, knyaz Əbdürrəhim, Molla Cümanın övladları və başqaları. Burada Xanlar ağa Cəfər ağa Şəkixanovun oğlunun Huri xanım Hüseyn ağa Şəkixanovun qızı ilə, ustad bərbər Məhərrəm bərbər Əbdürrəhman oğlunun Səkinə bəyim Molla Cümanın oğlu Manafın qızı ilə, Əlican Həsən xan Mirzə bəy Sultanovun oğlunun Səkinə bəyim Şəki bəylərbəyi Əlican Məhəmmədhəsən xanın qızı ilə, İbrahim bəy Şeyxəli bəy oğlunun Ballı xanım hacı Şəmsəddin bəyin övladı Mustafa bəyin qızı ilə evlənmələri ilə bağlı nigah müqavilələri öz əksini tapmışdır. «Qazıxana dəftəri»ndə Şəkinin istər məşhur şəxsiyyətlərinin, istərsə də sadə insanlarının nigah müqavilələri qeydə alınmışdır. Nigah müqaviləsinin əhatə etdiyi məlumatlar bunlardır: Evlənən oğlanın və ya kişinin, ailə quran qızın və ya qadının adları və soyadları, vəkillərin, şahidlərin, kəbin kəsənin adları, mehr və tarix.

«Qazıxana dəftəri»ndə verilmiş kişi və qadın adları xüsusi maraq doğurur. Adlar sistemində ərəb mənşəli adlar xüsusi yer tutur. Kişi adları sırasında Məhəmməd, İbrahimxəlil, Mahmud, Əbdülcabbar, Mustafa, Əhməd, Əbdüssəlam, Əbdülqədir, Musa, Abdulla, Əbdülvəhhab, Əbdülqaffar və başqa adlar üstünlük təşkil edir. Qadın adları sırasında ərəb mənşəli Məkkə, Fatimə, Aişə, Zeynəb, Xədicə, Mədinə və başqa adlar daha çoxdur. Kübar təbəqəyə mənsub olan qadınların adları arasında Ümmün-nisə, Xədicətün-nisə, Töhfətün-nisə, Fəxrün-nisə, Umm Gülsüm, Umm Səlma, Səlmacahan, Dürdanə, Bədrcahan, Şahzərif, Gövhərün-nisə, Ummus-salatin, Fatimətün-nisə, Səadətün-nisə, Zuhrün-nisə, Mahitaban, Mələknisə və başqaları kimi təmtəraqlı mürəkkəb tərkibli adlar xüsusi yer tutur.



«Qazıxana dəftəri»ndə verilmiş adlar sistemində ləqəblər xüsusi maraq doğurur. Bu ləqəblər əsasən insanların məşğuliyyət sahələri ilə bağlı olduğundan XIX əsrdə Şəkidə peşə və sənət sahələrinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Deyilənləri nəzərə alaraq həmin ləqəblərin bir qismini oxucuların nəzərinə çatdırırıq:

Aşbaz Əli, ayaqyalın Abdulla, arabaçı Lətif, bakkal Ağabala, başmaqçı Hüseyn, barıtçı Mahmud, bərbər Məhəmməd, börkçü Abdbulla, Banalı Bacı, bənna Salman, Balahacı Hacıağa, bonqçı Kərim, bala Məhəmməd, balaca Mahmud, bulaxçı Bəkir, bala Hacı, cuvar Musa, cubi Rəhim, culya Mahmud, çarıxçı İbrahimxəlil, çörəkçi Bəkir, çolaq Qurban, çayçı Totu, çal Mahmud, dəllal Kərim, dulus Sadiq, dəllək Məhəmməd, dəmirçi Osman, dulusçu qızı, dabbağ İbrahim, dəllək Musa, dərzi Həşim, dayı Rəsul, dadaş Hüseyin, əhnəkar Əbdülhəlim, əttar Suad, ərəb Əhməd, Əbdülcabbar bala, göy İsmayıl, gələckar Məhərrəm, gərah Nəsrulla, gödək Ələsgər, güləhduz Məhəmməd, həllac Məhəmməd, halvaçı İbrahim, hamamçı İsmayıl, kasıb Məhərrəm, kəfkir İlyas, koburnat Mustafa, kar Mustafa, körpə Məhərrəm, körükçü Əbdül, kəlbə Rəhim, knyaz Abdulla, kömürçü Məhəmməd, külahduz Əhməd, kəncur Kərim, keçəçi Rəcəb, kar Qara Məhəmməd, kosa Əbdürrəhim, kürəkçi Məhəmməd, qalayçı Allahverdi, qıran Əli bəy, qara Rəbiə, qıllı dabbağ, qəssab Ağakişi, qılan Əziz, qara Məhəmməd, qamət Abdulla, qurd Əhməd, qolahduz Səid, qaz İsmayıl, lələ Vəli, ləzgi Məmiş, mataq Rəsul,

Mahmud Koxa, nalbənd Cəfər, pesər Əbdülhəlim, Paruçik Əbdürrəhman, paşa Əhməd, sərraf Qafar, sabunçu Ramazan, sərrac Bilal, sərkər Məhəmməd, Sultan Murad, Sarı Qafar, şəkər İsmayıl, Şah Əhməd, yalınayaq Allahverdi, yasavul Sadiq, yetim İsmayıl, yüzbaşı Abdulla, yekə Məhəmməd, zərgər Məhəmmaəd, zilağa Məhərrəm. Göstərilən bu ləqəblərdən görünür ki, XIX yüzillikdə Şəkidə sənətkarlıq və ayrı-ayrı peşə sahələri geniş inkişaf etmişdir.

«Qazıxana dəftəri» Şəki bölgəsində səhiyyənin öyrənilməsi baxımından da dəyərli mənbədir. Bu mənbədə XIX yüzilliyin ikinci yarısında Şəkidə vəfat edənlər, onların vəfat tarixi, xəstəliyi və yaşı qeydə alınmışdır. Burada vəfat edənlərin böyük əksəriyyətinin ağ ciyər xəstəliklərindən, o cümlədən plevrit, vərəm və sətəlcəmdən öldükləri haqqında məlumat verilmişdir. Bundan başqa ishal, yatalaq, qızdırma, çiçək və yel xəstəliklərindən ölənlərin sayı da çox olmuşdur. Doğuş zamanı həyatdan getmiş qadınların sayı da kifayət qədərdir.

Bu mənbədə qeyd edildiyinə görə 1871-ci ildə Şəkidə kütləvi xəstəlik baş vermişdir.

1866-1880-ci illər arasında vəfat etmiş Şəki sakinlərinin ən çox yaşayanları əsasən 80-85 il ömür sürmüşlər. Lakin 90-100, hətta 120 il ömr sürənlər də olmuşdur. Mələkcahan qarı 120 yaşında vəfat etmişdir. Daha çox ömr sürmüş Şəki sakinləri içərisində kişilərə nisbətən qadınlar üstünlük təşkil edir.

«Qazıxana dəftəri» əsasında Şəki əhalisinin tərkibini nəzərdən keçirdikdə görürü ki, başqa şəhərlərdə olduğu kimi burada da əhalinin tərkibini yalnız Şəki və onun ətraf kəndləri deyil, daha geniş coğrafi ərazi əhatə edir. Bu coğrafi ərazi şimalda Qazan şəhərindən tutmuş cənubda Yaxın və Orta Şərq ölkələrinə qədər gedib çatır. Bu coğrafi ərazi aşağıdakı kənd və şəhərləri əhatə edir:

| | | |
|---|---|---|
| Ağdaş | Atqıraqlı | Axtı |
| Baltalı | Balut | Busas |
| Baltalı Boğaz | Bəlcuq | Bağbanlar |
| Balakən | Böyük Dəhnə | Bayan |
| Calut (Oğuzda) | Candar | Cavarşadu |



| | | |
|---|---|---|
| Cuvarlı | Çayqırağı | Çadu |
| Çolaqlı | Çayaqan | Çuxurqiblə |
| Dəhnə | Dulus | Dabbağ |
| Dəvəçi | Dodu | Divanbəyli |
| Daşcalı (Qutqaşendə) | | Ərəş |
| Fısdıqlı | Hisul | Xaçmaz |
| Xalut | İlisu | Kəldək |
| Köynük | Körümçü | Köngüt |
| Kişqışlaq | Kəldək | Kiş |
| Küngüt | Kuzeyr | Kumık |
| Kərbay | Qoxmuq | Qazan |
| Qarabağ | Qax | Qışlaq |
| Qaraqobu | Qaradağ | Quba |
| Qaraqoyunlu | Qazax | Qaratala |
| Qəbələ | Qutqaşen | Qıraqlı |
| Qibləvi |Ləkid | Lahıc |
| Meydan (Şirvanda) | | Mürsil |
| Nuxa | Nut | Oxud |
| Ocaqlı | Samux | Şahbalut |
| Şirvan | Şəki | Şerban |
| Şədul | Şamaxı | Tikan |
| Tikiver (Əfqənistan) | | Telavi |
| Üçqoğaq (Ağdaşda) | | Yuxarı Dəhnə |
| Yuxarı Dodu | Yuxarı Zəgzid | Zəgzid |

«Qazıxana dəftəri»ndə Şəkidə fəaliyyət göstərmiş Böyük Cümə məscidinin, Qışlaq cümə məscidinin Qaragözzadə məscidinin, hacı Tuti ağa məscidinin, eləcə də şəhərin Sabunçu, Dəmirçilər, Dabbağ, Qullar, Əfqan, Yuxarı Başlı məhəllələrinin adları öz əksini tapmışdır.

### H.1282 (1865)-ci il

| | | | |
|---|---|---|---|
| 1....Eyyub İbrahim oğlunun arvadı Bəsti Əli Məhəmməd qızı | yanıqdan | 65 yaş | şaban ayının ortası |
| 2....İsmayılın oğlu dülgər Rəsulun arvadı Tükəzban İsmayıl qızı | vərəm | 30 yaş | 20 şaban |
| 3.Hacı Dərviş Məhəmməd bəyin övladı Məhəmməd ağanın arvadı Güllü xanım Ağası bəyin qızı | zərbədən | 35 yaş | 22 şaban |
| 4....Şirin Ağababa Əli | vərəm | 35 yaş | |
| 5....Nəsib bəyin oğlu | yanıqdan | 70 yaş | |
| 6.Dabbağ Məhərrəmin arvadı Məhəmmədin qızı ... | yoldaşları tərəfindən qətlə yetirilmişdir | 20 yaş | |

### H.1283 (1866)-cü il

| | | | |
|---|---|---|---|
| 7.Mustafanın qızı Mədinə Şhacı Əhməd Heydər oğlunun arvadı) | qanaxmadan | 80 yaş | cəmadəl-əvvəl |
| 8.Hacı İsmayılın övladı Yusifin oğlu... | başa vurulan zərbədən | 20 yaş | cəmadəl-əxər |
| 9.Şərif İbrahim oğlu | vərəmdən | 50 yaş | 3 cəmadəl əxər |



| | | | |
|---|---|---|---|
| 8. Çələbi Nuxəvinin oğlu | plevrit | 30 yaş | rəcəb ayının 9-da |
| 9. Məhəmməd hacı Əbdür rəhim əfəndi oğlu, əslən Calutdan olub, Nuxada məskunlaşmışdır. | əl yarasından | 25 yaş | 13 rəcəb |
| 10. Qazaxlı Mustafa əfəndinin oğlu İbrahim əfəndi. | xəncər yarasından | 40 yaş | 10 şəban |

### H. 1283 (1867)-ci il

| | | | |
|---|---|---|---|
| 11. Xeyransa Öyüz qızı (Ağa Balaoğlanın arvadı). | yanıqdan | 80 yaş | 3 ramazan |
| 12. Əbulhüseynin qızı Xədicə. | plevrit | - | 3 şəvval |
| 13.Molla Nurməmmədin qızı Əminə (Hacı Əbdulqəffarın arvadı). | ciyər xəstəliyindən | 25 yaş | şəvvalın ortasında |
| 14. Hacı Şeyxinin qızı ... (Hacı Əbücəbbar Köynürün arvadı). | zərbədən | 30 yaş | 20 şəvval |
| 15. Hacı Əbdülqadirin xələfi Əbdülvəhab. | plevrit | 30 yaş | 3 zilqadə |
| 16. Xeyransa (Xeyrunnisə) Hacı Nağı bəyin qızı. | xəstəlikdən | 60 yaş | 3 zilqadə |
| 17.Hacı Əbdülhəlim Köynüklü Mikailin oğlu. | plevritdən | 50 yaş | 7 zilqadə |
| .18.Əbdülcəbbar Hacı Mahmud Mürsəllizadə Saraqlının oğlu. | güllə yarasından ölmüşdür | 20 yaş | zilqadə |
| 19. ...Bağı bəy oğlu. | uzun sürən xəstəlikdən | 60 yaşı | 2 zilqadə |
| 20.Zinət molla Yusif qızı. | qocalıqdan | 80 yaş | 10 zilqadə |
| 21.Yahya Köynürün arva | xəstəlikdən | 60 yaş | 12 zilqadə |

| | | | |
|---|---|---|---|
| dı.... | | | |
| 22. Əbdülcabbar valəd Şeyx Əhməd bin Mahmud bin Pirməmməd Xalisəqarızadə. | xəstəlikdən | 30 yaş | 27 zilqadə |
| 23. Hacı Mustafa xələf Yekə Məhəmməd Baltalı. | qocalıqdan | 80 yaş | 3 zilhiccə |
| 24. Hacı Qeybullanın qızı ... (Baqqal Feyzullanın arvadı). | - | 30 yaş | 9 zilhiccə |
| 25. Əbdülvəhab (Hacı Musa Törəzadənin oğlu). | uzun sürən xəstəlikdən | 20 yaş | 11 zilhiccə |
| 26. Ustad Həmidin oğlu ustad Əlif. | vərəmdən | 30 yaş | 16 zilhiccə |
| 27. Molla Ağababanın qızı Aişə. | yatalaqdan | 70 yaş | 16 zilhiccə |
| 28. Məhəmmədin oğlu Ağabala | şam yeməyi yeyərkən dəymiş güllədən | | zilhiccənin sonu |
| **H.** | **1284 (1868)** | **-cü il** | |
| 29. Hacı Əhməd Məhəmməd ağa oğlu Qışlaqlı. | uzun sürən xəstəlikdən | 80 yaş | Məhərrəm |
| 30. Əbdülqəffar hacı Cabbar oğlu . | güllədən | 25 yaş | məhərrəm |
| 31. Haşimin qızı Rəbiə (dəmirçi Əhmədin arvadı). | xəstəlikdən | 70 yaş | məhərrəm |
| 32. Molla Əhməd Lətif oğlu. | plevritdən | 50 yaş | 17 səfər |
| 33. Tükəz Seydəli qızı (dabbağ Hacı Kərimin | vərəmdən | 60 yaş | rabiul-əvvəl |



| | | | |
|---|---|---|---|
| arvadı). | | | |
| 34. Ağamoğlan Sarı. | xəstəlikdən | 80 yaş | 11 rəbiul-əvvəl |
| 35. Haşim Qışlaqlı. | baxçada başına dəyən güllədən | 40 yaş | 12 rəbiul-əvvəl |
| 36. Əbdüsəməd Həmid oğlu Qışlaqlı. | sinəsinə dəyən güllədən | 40 yaş | 12 rəbiul-əvvəl |
| 37. Pəri Həsən qızı (bərbər İsmayılın anası). | qocalıqdan | 80 yaş | 17 rəbiul-əvvəl |
| 38. Molla Əbdürrəhman molla Mustafa oğlu. | xəstəlikdən | 50 yaş | 29 rabiul-əvvəl |
| 39. Rəsulun qızı Telli xanım (Məhəmmədin arvadı). | xəstəlikdən | 25 yaş | rabiul-əxər |
| 40. Əlinin qızı Səkinə (Cümə məscidi müəzzininin arvadı). | xəstəlikdən | 50 yaş | 12 rəbiul-əxər |
| 41. Həsən əfəndi əslən Şahbalutdan olan Zeynal oğlu. | | 60 yaş | rabiul-əxər |
| 42. Yuxarı Dəhnəli Mir Lətifin arvadı İradə. | xəstəlikdən | 50 yaş | |
| 43. Dostu xanım hacı Mürşid qızı Daruğarzadə. | xəstəlikdən | 40 yaş | cəmadəl-əvvəl |
| 44. Qoxmuqlu hacı Nuri əfəndi. | qızdırmadan | 50 yaş | cəmadəl-əvvəl |
| 45. Məsum hacı Mirzə Nuxəvi oğlu. | xəstəlikdən | 30 yaş | cəmadəl-əxər |
| 46. Hacı Süleyman bəy hacı Məhəmməd Ağa divanbəyi oğlu. | | 60 yaş | cəmadəl-əxər |
| 47. Hacı Mahmudun qızı (Mahmud Ataoğlunun arvadı). | | 30 yaş | rəcəb |

Az- 249152



M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası

| | | | |
|---|---|---|---|
| 48. Haşim İmam Qışlaqinin oğlu. | | 30 yaş | 22 rəcəb |
| 49. Əminə xanım Əhməd ağa Kəldəki qızı (Süleyman Qazanşinin arvadı). | xəstəlikdən | 30 yaş | 6 şaban |
| 50. Zeynəb molla Kərim qızı (Rəcəb Keçəçinin arvadı). | ekiz övlad doğarkən | 30 yaş | şaban |
| 51. Molla Mustafanın qızı (Kərim oğlu Mustafanın arvadı). | مخاضدن | 30 yaş | şəban |
| 52. Raziyyə hacı Əhməd qızı. | xəstəlikdən | 70 yaş | ramazan |
| 53. Alicənab İbrahim əfəndi Məhəmməd əfəndi oğlu (əslən Zəgziddən olub Nuxanın Qışlaq hissəsində məskunlaşmışdır). | yatalaqdan | 60 yaş | ramazan |
| 54. Əsəd Əsəd oğlu. | xəstəlikdən | 25 yaş | ramazan |
| 55. Umm Əsəd Əsədin arvadı. | xəstəlikdən | 60 yaş | şəvval |
| 56. İbrahimxəlil Nəsir oğlu. | qəflətən ölmüşdür | 30 yaş | 9 şəvval |
| 57. Hacı Mustafa hacı Əhməd oğlu. | | 55 yaş | 9 şəvval |
| 58. Tükəzban Məqsud qızı. | xəstəlikdən | 50 yaşı | 31 şəvval |
| 59. Nurullah Duluszadə. | xəstəlikdən | 30 yaş | 13 zilqadə |
| 60. Misri qarı Dulusun qonşusu. | xəstəlikdən | 50 yaş | 14 zilqadə |
| 61. Dostu xanım hacı Novruzəli qızı. | xəstəlikdən | 60 yaş | 19 zilqadə |
| 62. Ağa Əziz Şirin oğlu Kərim hacı Yaqubi- | yanıqdan | 45 yaş | zilqadə |



| | | | |
|---|---|---|---|
| zadə. | | | |
| 63. Tükəzban İsmayıl Dulus qızı. | qocalıqdan | 60 yaş | 2 zilhiccə |
| 64. Hacı Nəbi İsa Baltalı oğlu. | | 50 yaş | 8 zilhiccə |
| H. | 1285 (1869) | - ci il | |
| 65. Əminə Həşim qızı. | xəstəlikdən | 30 yaş | 13 məhərrəm |
| 66. Şeyx Abdulla əfəndi oxudlu Haşim oğlu. | xəstəlikdən | 45 yaş | məhərrəm |
| 67. Əlibala hacı Abdussəməd oğlu Kərbəlayi Bədəl oğlu. | başına dəyən güllədən | 30 yaş | səfər |
| 68. Nəzər qızı Pir Abdulcəbbarın arvadı. | xəstəlikdən | 21 yaş | 2 səfər |
| 69. Kərim knyaz Əbdürrəhim oğlu. | qarın ağrısından və sarılıqdan | 15 yaş | 9 rəbiul-əvvəl |
| 70. Əbdulcəlil molla Ələsgər Dabbağlı oğlu. | uzun sürən xəstəlikdən | 25 yaş | 28 rəbiul-əvvəl |
| 71. Teymur Teymurun oğlu Hüseynin övladı. | uzun surən xəstəlikdən | 7 yaşı | 3 rəbiul-əvvəl |
| 72. Əslən Zəyziddən olan hacı Əzizin qızı. | uşaq doğumundan | 25 yaş | 3 rəbiul-əxər |
| 73. İlyas usta Əbdülkərim oğlu. | uzun sürən xəstəlikdən | 20 yaş | camadal-əvvəl |
| 74. Əbdülkərim bəy Əbdürrəhman bəyin oğlu. | iflicdən | 60 yaş | 7 cəmadəl-əxər |
| 75. Cümə məscidinin ikinci imamı Alicənab Hacı Mahmud əfəndi Mustafa əfəndi oğlu. | yara və ishaldan | 53 yaş | cəmadəl-əxər |
| 76. Hacı Məhəmməd Nuxəvinin qızı ... (Məhəmmədin oğlu | uzun sürən xəstəlikdən | | 21 cəmadəl-əxər |

| | | | |
|---|---|---|---|
| hacı Rəşidin arvadı). | | | |
| 77. Süleyman hacı Teymurun övladı hacı Rəhimin oğlu. | vadyanka xəstəliyindən | 40 yaş | 17 rəcəb |
| 78. Bahar İsmayıl qızı (Əbdülhüseynin anası). | uzun sürən xəstəlikdən | 50 yaş | 18 rəcəb |
| 79. Xudaverdi Yusif oğlu | yanıqdan | 40 yaş | rəcəb |
| 80. Abidi bəy Seyid Məhəmməd bəy oğlu. | qocalıqdan | 90 yaş | şəban |
| 82. Balaxanım Məhəmməd Vəli ağa qızı (Kar ustad Qara Məhəmməd oğlu ustad Xəlilin arvadı). | - | 60 yaş | şəvval |
| 83. Cənab hacı Əbdüləzim Əfəndi vaiz Cəmşid Nuxəvi oğlu. | xəstəlikdən - | 70 yaş | şəvval |
| 84. Tuti | xəstəlikdən | 70 yaş | şəvval |
| 85. Muxlisə Nuxa sakini molla İsa qızı (Əhmədin arvadı). | - | 30 yaş | zülqadə |
| 86. Aişə xanım Əziz əfəndi qızı. | | 60 yaş | 18 zülqadə |
| 87. Yusif bəy Qurban bəy Qazaq oğlu. | yatalaqdan | 18 yaş | 21 zülqadə |
| 88. Həlimə Məhəmməd Qundaqsaz qızı (Hacı Mustafanın ... arvadı). | - | 40 yaş | 3 məhərrəm |
| **H.** | **1286 (1870)** | **-cı il** | |
| 89. Anaxanım İmamverdinin (Hacı Hüseyn əfəndinin anası). | xəstəlikdən | 70 yaş | 7 məhərrəm |
| 90. Anaxanım Əhməd Ata oğlunun qızı (əri | uzun sürən xəstəlikdən | 20 yaş | 25 səfər |



| | | | |
|---|---|---|---|
| Hacı Mahmud Nuxəvinin oğlu Qasım). | | | |
| 91. Mədinə hacı Qasım Nuxəvinin arvadı. | xəstəlikdən | 60 yaş | səfər |
| 92 Cici xanım Hüseyn qızı (Əbdücabbarın arvadı). | uzun sürən xəstəlikdən | 50 yaş | 30 rabiül-əvvəl |
| 93. Dilək Əbdürrəhman Sufi Həsənəli oğlu. | qanaxmadan | 62 yaş | 25 rəbiül-əvvəl |
| 94. Hacı Mürşidin oğlu hacı Əbdülkərimin qızı Şərifə (Hacı Haşimin nəvəsi hacı Əbdülqəffarın arvadı). | xəstəlikdən | 22 yaş | 28 rəbiül-əvvəl |
| 95. Ağakişi Haşim ÇayqıraĞinin oğlu. | xəstəlikdən | 40 yaşı | 7 rabiül-əxər |
| 96. Hacı İbrahim Şəmi oğlu (Ərəş mahalındandır). | uzun sürən xəstəlikdən | 60 yaş | 8 rəbiül-əxər |
| 97. Yaxşı xanım Qışlaqlı Məhəmməd Nuxəvinin qızı (Xasməmməd bəyin oğlu Ağakişi bəyin arvadı). | xəstəlikdən | 60 yaş | 15 rəbiül-əxər |
| 98. Zeynəb Məhəmməd Rəhim dulus qızı. | xəstəlikdən | 50 yaş | 26 rəbiül-əxər |
| 99. Nəcməddin saldat Seyfəddin oğlu (Qazan vilayətinin təbiəsindən). | - | - | 27 rəbiül-əxər |
| 100. Tükəzban xanım hacı Allahverdi bəyin qızı (Hacı Hüseynin oğlu Hacıağa Məhəmmədin arvadı). | qocalıqdan | 90 yaş | 28 rəbiül-əxər |
| 101. Sənəm xanım Səfər | qocalıqdan | 60 yaş | 29 rəbiül- |

| | | | |
|---|---|---|---|
| bəy Qarabağinin qızı (Ağa Mirzə bəyin arvadı). | | | əxər |
| 102. Tükəzban ustad Eyyubun qızı (Məhəmmədin arvadı). | uzun sürən xəstəlikdən | 50 yaş | 30 camadəl-əvvəl |
| 103.Məleykə Məhəmməd Əli qızı (Şahmar oğlu Məhəmmədin arvadı). | xəstəlikdən | 80 yaş | 7 camadəl-əxər |
| 104. Pəri Əmir qızı (Yalınayaq Allahverdinin arvadı). | yatalaqdan | 70 yaş | 13 cəmadəl-əxər |
| 105. Talib Şahmar oğlu Məhəmmədin övladı. | yanıqdan | 40 yaş | 13 cəmadəs-səni |
| 106. Əbdülfəttah bəy Məhəmməd Kərim ağa oğlu. | xəncər yarasından | 50 yaş | 17 cəmadəl-əxər |
| 107. Qızxanım hacı Novruzəli qızı | xəstəlikdən | 70 yaş | 20 cəmadəs-səni |
| 108. Məhəmməd yüzbaşı İbrahimin oğlu Abdullanın övladı. | uzun sürən xəstəlikdən | 15 yaş | cəmadəl-əxər |
| 109. Seyyid Məhəmməd Seyyid Həsən Nuxəvi oğlu. | | 14 yaş | 14 rəcəb |
| 110. Güllü Məhəmməd Nəbi qızı (ustad Güloğlunun arvadı). | uzun sürən xəstəlikdən | 35 yaş | 16 rəcəb |
| 111. Rəşid dəllək Musanın oğlu ustad İsmayılın övladı. | ishaldan | 40 yaş | 27 rəcəb |
| 112. Məhəmməd Zəgzidli İsmayılın oğlu. | plevritdən | 15 yaş | 28 rəcəb |
| 113. Molla Abdulla bəy Qaxızadə. | boğazı gəlməkdən | 50 yaş | 2 ramazan |
| 114.Tükəzban Qara Əh- | uzun sürən | — | 9 ramazan |



| | | | |
|---|---|---|---|
| məd qızı (Hacı Məhəmməd əfəndi Nuxəvinin arvadı). | xəstəlikdən | | |
| 115. Hənifə Məhəmməd Rəhim qızı (Dabbağ hacı Abdullanın arvadı). | qocalıqdan | 80 yaş | 11 ramazan |
| 116. Mələk Bağıbəyin oğlu Səfərin qızı. | yel xəstəliyindən | 20 yaş | 19 ramazan |
| 117.Cümə məscidinin xadimi molla Mahmud dəllək Məhəmmədin oğlu. | qarnı yırtılmaqdan | 50 yaş | 25 ramazan |
| 118. Dulusçu hacı Mahmud Xəlil oğlu. | uzun sürən xəstəlikdən | 70 yaş | 29 ramazan |
| 119.Hacıağa Məhəmməd Nuxəvinin oğlu ağa Çələbinin qızı. | uzun sürən xəstəlikdən | 14 yaş | 13 şəvval |
| 120.Qızxanım Hacı molla Əlinin oğlu molla Məhəmmədin qızı (Hacı İbrahimin arvadı). | xəstəlikdən | 70 yaş | 20 şəvval |
| 121.Səlma Cahan İbrahim qızı (əslən Balutdan olan Əhməd şahın arvadı). | doğuşdan | — | Şəvval |
| 122.Xədicə Əbdürrəhman qızı (Əbdüləzizin anası). | çalma azarından | 60 yaş | Zülqadə |
| 123.Hacı Məhəmməd Hüseynəli oğlu Körümçünün qızı. | | 15 yaş | |
| 127.Əlahəzrət molla ağa Məhəmməd ustad Yusif oğlu. | ciyər xəstəliyindən | 30 yaş | 15 zilqadə |
| 128.Daşdəmir Qurban | yanıqdan | 60 yaş | 20 zilqadə |

| | | | |
|---|---|---|---|
| Meydani Şirvaninin oğlu. | | | |
| 129.Umm Hani əslən Ocaklı olub Nuxada məskunlaşmış hacı Əhməd qızı (molla İsanın keçmiş arvadı). | | 50 yaş | Zilqadə |
| 130.Xədicə Məhəmməd - əli qızı (əslən Şirvandan olan Dadaş Hüseynin arvadı). | | 60 yaş | 4 zilhiccə |
| 131.Sona Mustafa qızı (Nuxada məskunlaşmış hacı Mirzənin anası). | | 100 yaş | 5 zilhiccə |
| 132.Səlim nuxalı Hacıbaba oğlu. | yanıqdan | 30 yaş | 8 zilhiccə |
| 133.Səlim köynüklü hacı Ağababa oğlu. | dustaqxanada ölüb | 30 yaş | Zilhiccə |
| 134.Hacı Kərim ağa Mirzənin övladı Yaqubun oğlu. | boğaz gəlməsindən ölüb | 75 yaş | |
| 135.Dostu xanım Lətif qızı (Qəssab Lətifin arvadı). | vərəmdən | 40 yaş | Zilhiccə |
| **H.** | **1287 (1871)** | **-ci il** | |
| 136.Yusif hacı Abdulla mürsilli Kərimzadə oğlu. | quduzluqdan | 30 yaş | Məhərrəm |
| 137.Mustafa hacı Allahverdi oğlu. | vərəmdən | 50 yaş | Məhərrəm |
| 138.Molla İbrahimxəlil Hacıağa Rza bəyin oğlu. | kütləvi xəstəlikdən | 40 yaş | 10 məhərrəm |
| 139.Cabbar Mahmud Tapança nuxalı oğlu. | yatalaqdan | 18 yaş | 14 məhərrəm |



| | | | |
|---|---|---|---|
| 140.Xeyransa Qasım qızı (Allahverdinin arvadı). | | 80 yaş | 16 məhərrəm |
| 141.Dərzi usta Abdulla Mustafa oğlu. | yanıqdan | 60 yaş | 19 məhərrəm |
| 142.Ummunisə Ustad İbrahimxəlilin qızı. | yanıqdan | 18 yaş | 6 səfər |
| 143.Xeyransa Yusif qızı (Mahmud Tapança Nuxəvinin arvadı). | yanıqdan | 50 yaş | 12 səfər |
| 144.Məhərrəm hacı Xasməmməd Nuxalının oğlu. | uzunsürən xəstəlikdən | 40 yaş | 16 səfər |
| 145.Fatimə Haşım qızı (baqqal Əlinin övladı Hüseynin arvadı). | uzunsürən xəstəlikdən | 40 yaş | rabiul-əvvəl |
| 146.Ustad Əbdülvəhab Körükçü Əbülhüseyn oğlu. | yanıqdan | 60 yaş | rabiul-əvvəl |
| 147.Çörəkçi Əbdülqədir İsmayıl oğlu. | plevritdən | 50 yaş | rabiul-əvvəl |
| 148.Şərifə qışlaqlı Məhəmməd Nuxəvinin qızı. | | 70 yaş | rabiul-əxər |
| 149.Hacı İbrahim Şərbaf Allahverdi oğlu Nuxəvi. | vərəmdən | 80 yaş | rəbiul-əxər |
| 150.Umm Hani Seyyid əttar qızı (qəssab Hacı Yusifin arvadı). | uşaq doğuşu zamanı | 40 yaş | 9rəbiul-əxər |
| 151.Hüseyn Əli əslən Kişdən olan Məhəmməd Nuxalı oğlu. | vərəmdən | 20 yaş | 16 rəbiul-əxər |
| 152.Həvva Əbdürrəhim əfəndi qızı. | yanıqdan | 40 yaş | 20 camadəl-əvvəl |
| 153.Mustafa Əli oğlu. | qızdırmadan | 40 yaş | 21 camadəl-əvvəl |

| | | | |
|---|---|---|---|
| 154.Cənab Əli əfəndi qaxlının övladı. | | 7 yaş | 27 camadəl-əvvəl |
| 155.Dostu xanım Kişli Kosa Əbdürrəhim qızı (Nuxalı Məhərrəmin arvadı). | uşaq doğuşu zamanı | 37 yaş | cəmadəl-oxər |
| 156.Mələk xanım Əli qızı (Məhəmməd Rəhim Sərkər Əhməd oğlunun arvadı). | xəstəlikdən | 80 yaş | cəmadəl-əxər |
| 157.Molla Əbdülqədir hacı Məhəmmədyar tacir oğlu. | kürəyin-dən dəyən güllədən | 40 yaş | cəmadəl-əxər |
| 158.Tubə hacı Abdulla qızı (Manaf Məafin arva dı). | ciyər xəs-təliyindən | 70 yaş | cəmadəl-əxər |
| 159.Tükəzban Əhməd Ata oğlunun qızı (Hacı Mahmud oğlu hacı Rə-himin övladı Məhəm-məd Tağının arvadı). | ciyər xəs-təliyindən | 30 yaş | rəcəb |
| 160.Xeyransa şeyx Səlim qızı (Molla Əbdüləzim oğlu Məhəmməd Ağa-nın arvadı - Əbdülcəb-barın anası). | | | rəcəb |
| 161.Hacı Məhəmməd Nəbi oğlu Əbdürrəhma-nın övladı. | qızdırmadan | 14 yaş | rəcəb |
| 162.Allahverdinin oğlu Məhəmməd Səidin qızı Tayyibə. | soyuqdan donmuş | 30 yaş | 28 rəcəb |
| 163.Xəlil qalayçı qızı Əminə xatın (Abdulla-nın arvadı). | yanıqdan | 30 yaş | 29 rəcəb |
| 164.Hacı Sadıq qızı Əmi- | qızdırmadan | 18 yaş | 30 rəcəb |



| | | | |
|---|---|---|---|
| nə (Ağamirzə bəyin öv-ladı Həsən bəyin arvadı) | | | |
| 165.Hüseynəlinin oğlu hacı Məhəmməd kü-rəkçi. | duş gəlməsi azarından | 80 yaş | 18 şaban |
| 166.Hacı Çələbi əfəndi oğlu molla İsmayılın övladı Əhməd. | dəmir arşı-nın gözünə batması nəti-cəsində | 2 yaş | 31 ramazan |
| 167.Əslən Qazaxdan olan Əbdürrəhman əfəndi-nin qardaşı Həsən bəy. | yanıqdan | 50 yaş | 9 şəvval |
| 168.Əslən kumuqdan olan molla Məhəmməd əfəndinin qızı Fatimə (Mühacir ustad Əli Nuxəvinin arvadı). | uzunsürən xəstəlikdən | 30 yaş | 20 şəban |
| 169.Hacı Cabbarın qızı Bacıxanım (Hacı Tey-mur oğlu Əbdürrəhma-nın arvadı). | | 40 yaş | |
| 170.Qəssab Sadiqin qızı. | uzunsürən xəstəlikdən | 50 yaş | 3 zilqadə |
| 171.Qışlaqlı molla Həmi-din qızı (Nuxada məs-kunlaşmış Qışlaqlı hacı Əlinin arvadı). | | | 11 zilqadə |
| 172.Köngütlü İbrahim ağanın qızı Səkinə (Hacıbaba oğlu cənab Saleh əfəndinin arvadı). | elə məşhur xəstəlikdən | 45 yaş | 15 zilqadə |
| 173.Hacı Yusif axundun oğlu molla Mustafanın övladı molla İbrahim-xəlil. | qocalıqdan | 77 yaş | 15 zilqadə |
| 174.Hacı Musa bəyin oğlu | uzunsürən | 60 yaş | Zilqadə |

| | | | |
|---|---|---|---|
| Mahmud ağanın qızı Fatimə xanım (əvvəl Bala Hacının, sonra isə Şahqulu bəyin oğlu Hacıağa bəyin arvadı). | xəstəlikdən | | |
| 175.Kazım əfəndinin qızı Telli (Molla Əbdürrəhmanın arvadı). | xəstəlikdən | 40 yaş | Zilqadə |
| 176.Hacıağa Məhəmməd Nuxəvinin övladı hacı Hüseyn. | yara çıxarmaqdan | 60 yaş | Zilqadə |
| 177.Seyyid oğlu ustad Kərimin anası Xədicə | xəstəlikdən | 80 yaş | Zilhiccə |
| 178.Kürəkçi ustad Əbdülhəlimin qızı Şükür (Hüseynəli oğlu Hacı Məhəmməd kürəkçinin övladı Rəsulun arvadı). | uzunsürən xəstəlikdən | 25 yaş | Zilhiccə |
| 179. Bayraməli oğlu qəssab hacı Yusif. | xəstəlikdən | 60 yaş | Zilhiccə |
| 180.Şikəst Məhəmmədin övladı Mirzə Məhəmməd. | burundan qanaxmadan | 60 yaş | 12 zilhiccə |
| 181.Şəmsi Əli qızı (Məhəmməd Əli əhnəkər Nuxəvi). | xəstəlikdən | 70 yaş | Zilhiccə |
| 182.Hüsni Cahan Bayraməli qızı (Səfixan oğlu İsmayılın arvadı). | xəstəlikdən | 70 yaş | Zilhiccə |
| 183.Püstə İbrahim qızı (Məhəmməd Yusifin oğlu Cabbarın arvadı). | xəstəlikdən | 40 yaş | Zilhiccə |
| 184.Umm Səlma Ağakərim qızı (Allahqulu Nuxəvinin oğlu Süleymanın arvadı). | zəhidən | 40 yaş | Zilhiccə |



| | | | |
|---|---|---|---|
| 185.İbrahimxəlil hacı Həsən oğlu. | | 50 yaş | Zilhiccə |

**H. 1288 (1872)-ci il**

| | | | |
|---|---|---|---|
| 186.Əli Məhəmməd Nəbinin oğlu Fərid. | | 80 yaş | Məhərrəm |
| 187.Hacı Hüseynəlinin oğlu Bədəlin övladı Abbas. | plevritdən | 50 yaş | 15 məhərrəm |
| 188.Hacı Yusif Yaqub Kiş Qışlaqlının oğlu. | plevritdən | 60 yaş | 28 məhərrəm |
| 189.Ustad Mustafa bərbər Əlinin övladı. | qolunda maşar azarından | 70 yaş | 9 səfər |
| 190.Ustad İbrahim Məhəmməd Hüseynin övladı. | plevritdən | 60 yaş | 9 səfər |
| 191.Əminə xatun hacı Əbdülcəbbar qızı (Hacı Feyzulla Qışlaqinin qızı). | | 30 yaş | 18 səfər |
| 192.Alicənab Kazım əfəndi Nuxəvi Məhəmməd Hüseyn Nuxəvi oğlu. | yel xəstəliyindən | 70 yaş | 3 rəbiul-əvvəl |
| 193.Ustad Məhəmməd Güləhdüz əslən Köynükdən olan Ağası bəyin oğlu. | yel xəstəliyindən | 50 yaş | 20 rəbiul-əvvəl |
| 194.Səadət Rəhim ağanın qızı (Hacı Süleymanın arvadı). | kəsib uşaq doğuzdurmaqdan | 50 yaş | 2 rəbiul-əxər əxər |
| 195.Hacı Əbdürrəhim hacı Şəhabəddinin oğlu hacı Kərimin övladı. | bədən zəifliyindən | 60 yaş | 28 rəbiul-əxər |
| 196.Güllü xanım Əbdür- | uzunsürən | 60 yaş | 24 cəmadəl- |

| | | | |
|---|---|---|---|
| rəhman byin qızı (Abdulla bəyin arvadı). | xəstəlikdən | | əvvəl |
| 197.Fəxri hacı Məhəmməd ücgızadənin qızı (Qışlaqlı hacı Mahmudun arvadı). | qanaxmadan | 50 yaş | cəmadəl-axir |
| 198.Zeybun-nisə Hacıağa Məhəmmədin övladı Hacıağanın qızı (Hacıağa Məhəmmədin oğlu Çələbinin övladı Əbülməcidin arvadı). | uşaq doğuşundan | 20 yaş | |
| 199.İlyas qəssab Sadiqin oğlu. | uzun xəstəlikdən | 20 yaş | Rəcəb |
| 200.Şəhrəbanu Abdulla ləzginin qızı (Qışlaqlı Nəzənin oğlu Muxtarın arvadı). | uzun xəstəlikdən | 50 yaş | 15 rəcəb |
| 201.Aişə hacı Molla Əlinin oğlu hacı molla İsmayılın qızı (Molla Əhmədin oğlu Paşa Əhmədin arvadı). | uzun xəstəlikdən | 50 yaş | Rəcəb |
| 202.Əhməd Mahmud dayının atası molla Abdulla ipəkçinin övladı. | yatalaq xəstəliyindən | 60 yaş | 2 şaban |
| 203.Bala Hacı hacı Rəhim Qaragözzadə oğlu. | nəfəs çatışmamazlığından | 60 yaş | 22 şaban |
| 204.Əbdülvəhhab əhnikar İbrahimxəlil oğlu. | uzun xəstəlikdən | 70 yaş | 18 şaban |
| 205.Ustad Allahverdi Yusif oğlu. | xəstəlikdən | 60 yaş | 5 ramazan |
| 206.Mirzə Əsəd bəy Mirzə İbrahim bəyin oğlu. | uzun xəstəlikdən | 70 yaş | 9 ramazan |
| 207.Ustad Xəlil qalayçı | plevritdən | 60 yaş | 19 ramazan |



| | | | |
|---|---|---|---|
| Əvəzin oğlu | | | |
| 208.Əbdülməcid Hacıağa Məhəmmədin övladı Çələbi ağanın oğlu. | uzun xəstəlikdən | 30 yaş | 22 ramazan |
| 209.Pəsər Qədir hacı Məhəmmədyar oğlu. | uzun xəstəlikdən | 4 yaş | 4 şəvval |
| 210.Abdulla Qazmaları (Əhməd ağanın qızı Dürdanənin əri). | plevritdən | 50 yaş | 5 şəvval |
| 211.Ustad Əbdürrəhman Seyyid oğlu. | ishaldan | 50 yaş | 9 şəvval |
| 212.Məhərrəm Zilağa adıyla məşhur olmuş İsa oğlu. | yatalaqdan | 50 yaş | 15 şəvval |
| 213.Balaxanım xanım hacı Xan Bozorg qızı (Səlim xanın, Musa sultanın və Danial sultanın arvadı). | | 99 yaş | 18 şəvval |
| 214.Əbdürrəhman ağa hacı Nağıbəyin oğlu. | xəstəlikdən | 63 yaş | 29 şəvval |
| 215.Mahitaban Məhəmməd qızı (Çörəkçi Səmədin övladı ustad dərzi Həsənin arvadı). | - | 30 yaş | 10 zil-qadə |
| 216.Molla Saleh çadulu Hacı Murad Hasil çadulu oğlu. | - | 50 yaş | 9 zil-qadə |
| 217.Xədicə molla Nəbinin oğlu hacı İsmayılın qızı (Hacı Qədim yüzbaşı Nuxəvinin arvadı). | - | 70 yaş | 16 zil-qadə |
| 218.Əhmədin övladı baqqal Babanın qızı. | bel yarasından | 13 yaş | 1 zil-hiccə |
| 219.Əslən Kumuqdan olan molla Məhəmmədin övladı İsmayılın ar- | sarılıqdan | 30 yaş | 1 zil-hiccə |

| | | | |
|---|---|---|---|
| vadı. | | | |
| 220.Mədinə Məhəmməd qızı (Ustad Cabbar Nuxəvinin arvadı). | | 60 yaş | 12 zil-hiccə |
| 221.Hacı Abdulla əfəndi molla Məhəmmədəmin Qışlaqlının oğlu. | | 60 yaş | 18 zil-hiccə |
| 222.Səlma hacı Şah Məhəmməd qızı (Əbdürrəhim bəyin arvadı). | xəstəlikdən | 70 yaş | zil-hicco |
| 223.Əbdülqədir əslən Zəgziddən olan hacı Əzizin oğlu. | su çiçəyi xəstəliyindən | 50 yaş | 27 zil-hiccə |
| 224.Ustad Yusif Nuxəvinin arvadı. | yanıqdan | 60 yaş | 28 zil-hiccə |
| 225.Tuba Suxtə dayının qızı (Hacı Məhəmməd - bağının arvadı - Mərid molla İbrahimxəlilin arvadı). | xəstəlikdən | 80 yaş | məhərrəm |

**H. 1289 (1873)-cu il**

| | | | |
|---|---|---|---|
| 226.Ustad Cabbar Abdulla yüzbaşı oğlu. | yanıqdan | 80 yaş | məhərrəm |
| 227.Yurbə Səki oğlu MəHəmmədhəsən İktisi. | yanıqdan | 40 yaş | məhərrəm |
| 228.Səlma Cahan xanım molla Əzim Candar qızı (Şəki bəylərbəyi Fətəli xanın övladı alicənab Əbdülkərim ağanın arvadı). | | 80 yaş | |
| 229.Kiçik xanım Bayram qızı (Hacı Şahbaz oğlunun bacısı). | su çiçəyi xəstəliyindən | 80 yaş | 17 məhərrəm |



| | | | |
|---|---|---|---|
| 230.Mustafa Qaraqobi əsilli molla İsanın övladı. | yanıqdan | 30 yaş | 19 məhərrəm |
| 231.Pəri hacı Nuh qızı (Səlim Süleyman oğlu Kuzeyri). | uzun sürən xəstəlikdən | 30 yaş | 27 məhərrəm |
| 232.Əfruz Əli Məhəmmədin uşaqlarından Əhmədin oğlu hacı Kərim dabbağın qızı (Mikailin arvadı). | uzun sürən xəstəlikdən | 30 yaş | 27 məhərrəm |
| 233.Qızyetər xanım Feyzulla İbrahim Kindi qızı (Əbdülqəni bəy Nuxəvinin arvadı). | uzun sürən xəstəlikdən | 60 yaş | |
| 234.Köngütlü Əziz (ölü namazını Əbdülqəni əfəndi Xalisəqarızadə qılmış, Əbdülcəlil əfəndi isə dəfn etmişdir). | dustaqxanada öldürülmüşdür | | |
| 235.Qasım Yusif oğlu başmaqçı. | yanıqdan | 30 yaş | Səfər |
| 236.Şölə xanım Yusif bəyin qızı (Ağaxanın oğlu Sadiqin arvadı). | yel xəstəliyindən | | |
| 237.Xəstə Sahibfuraş. | - | 25 yaş | |
| 238.Əziz Hacı Məhəmmədyar Nuxəvi oğlu. | davada aldığı daş yarasından | 40 yaş | 12 rəbiül-əvvəl |
| 239.Səltənət Əfqan qızı. | yanıqdan | 20 yaş | 15 rəbiül-əvvəl |
| 240.Hacı İsmayıl bəy Şirin bəy Şəkəvi Samuqi. | yanıqdan | 90 yaş | 29 rəbiül-əvvəl |
| 241.Bayraməlinin övladı ustad Qədirin qızı. | yatalaqdan | 20 yaş | 5 rəbiül-əxər |
| 242.Ustad Rəşidin qızı Mələk (Məhəmməd Çörək- | xəstəlikdən | 40 yaş | 7 rəbiul-əxər |

| | | | |
|---|---|---|---|
| çizadə dabbağın arvadı). | | | |
| 243.Cənab hacı Əli əfəndi Qışlaqlı kimi tanınmış Hacıağa Məhəmməd oğlu. | nəfəs çatışmazlığından | 48 yaş | 8 rəbiul-əxər |
| 244.İsmayıl hacı Əbdülcəlil əfəndi oğlu. | suda boğulmadan | 50 yaş | 25 rəbiul-əxər |
| 245.Zeynəb hacı Musa bəyin oğlu Mahmud ağanın qızı (Hacı İbrahimin arvadı). | xəstəlikdən | 60 yaş | rəbiul-əxər |
| 246.Nənəxanım Süleyman qızı (Əhməd Kələkdurun arvadı, hacı Sadiqin anası). | xəstəlikdən | 80 yaş | 15 camədəl-əvvəl |
| 247.Möhsün bəy Mirzə Əbdülün oğlu Vəzirin oğluMirzə Məhəmməd bəyin övladı. | uzun sürən xəstəlikdən | 40 yaş | 15 camədəl-əvvəl |
| 248.Hacı Əbdülhəmid əslən Şerbanidən olan hacı Mahmudun oğlu (tacir). | xəstəlikdən | 50 yaş | cəmadəl-əxər |
| 249.İsmayıl Qadaş Əbdürrəhim oğlu Abdullanın övladı. | yatalaqdan | 8 yaş | 10 şaban |
| 250.Ələkbər bakkal İbrahim oğlu. | uzun sürən xəstəlikdən | 45 yaş | 18 şaban |
| 251.Məhəmməd Kazım oğlu ustad Talibin övladı. | xəstəlikdən | 25 yaş | 4 ramazan |
| 252.Hacı ağa Məhəmməd oğlu Çələbi ağanın qızı Məkkə. | xəstəlikdən | 25 yaş | 5 ramazan |
| 253.İbrahimxəlil Əli oğlu İsmayılın övladı. | uzun sürən xəstəlikdən | 25 yaş | 8 ramazan |
